# KLOUN



Vəfa Mürsəlqızı

Hava küləkli idi. Həmişə küləkli günlərdə qəmgin olurdu. Başqa günlərdə də qəmgin olurdu, amma külək onda nəsə qəribə bir hüzn oyadırdı. Restoranın qarşısında həmişəki kimi çoxlu maşın və adam vardı. Bu gün işə tez gəlmişdi. Adətən işə düz vaxtında gələrdi, nə gec, nə də tez. Darısqal, yarımqaranlıq, nəm bir evin zirzəmisində kirayə qalırdı. Bura otaq deməyə adamın dili dönmürdü. Camaat arasında xruşşovka adlanan sovet dönəmindən qalma beşmərtəbəli evin zirzəmisini hansısa diribaş sakin suvayıb otaqfason bir şey təşkil etmişdi. Hərdən ona elə gəlirdi ki, yaşadığı ömür də ona bir növ kirayə verilib. Avtomobil, mənzil və başqa şeylər kimi. Yox, o Allahın ona əmanət ömür verməsi barədə uzun-uzadı dini mülahizələr yürüdəcək hövsələyə malik deyildi. Eləcə ən loru şəkildə ömrünü kirayə yaşadığını düşünürdü. İndi yadına düşdü ki, deyəsən heç zaman geniş, işıqlı, təmirli ev arzulamayıb. Arzular, əslində, ümidlərdən doğulur. Yəni əvvəlcə adam nəyəsə ümid edir və başlayır arzulamağa. Düzdür zamanla insan arsızlaşır və arzular da başlayır böyüyüb hüdudunu aşmağa. Lap keçəlin padşah qızını almaq arzusuna dönür. Onun ümidi olmamışdı deyə arzusu da yox idi.. Həyətdə iki yekəpər kişi durmuşdu. Restoranın müdiri ilə nəsə danışırdılar. Görünür, toy gününün vaxtını təyin edirdilər, çünki müdir telefonunun ekranında təqvimə baxıb nəsə hesablayırdı. Sakitcə onların yanından sivişib içəri girdi. Şəlalə dönüb təəccüblə ona baxdı.

- Bıy, Camal, nə tez gəlmisən?

Şəlalə arıq, qara arvad idi. Qabyuyan işləyirdi. Pis adam deyildi. Bir az çoxdanışan idi, vəssalam. Şəlalənin öz keçmişi haqqında danışdıqlarına bəlkə üst-üstə iyirmi dəfə eşitmişdi. Şəlalə vaxtı ilə çox gözəl olduğunu, yaxşı vəzifədə işlədiyini, hətta evində qulluqçu saxladığını da deyirdi. O inanırdı. Çünki, həyatda daha betər hadisələr görmüşdü. Keçib masanın arxasında oturdu. Saat beşə on beş dəqiqə işləyirdi. Saat beşdə Sünnət toyu başlayacaqdı. Demək onun işinin başlamasına hələ qırx beş dəqiqə vardı. Başını masanın üstünə qoydu. Axşam yenə Nərgizlə dalaşmışdılar. Gecə yaxşı yatmamışdı. Evdəki gərginlik həmişə birtərəfli olurdu. Çünki Nərgiz heç vaxt ona cavab qaytarmırdı. Adətən, o evə içkili gəlir və Nərgizi sıxışdırmağa başlayırdı. Söyürdü, acılayırdı, bəzən də yumruqlarını işə salırdı. Bir iki dəfə qadını buz kimi havada çölə də atmışdı. Nərgiz heç yerə getmirdi. O yaxşı başa düşürdü ki, Nərgizin getməməsinə səbəb getməyə yerinin olmaması deyil. Hər halda bu gen dünyada bir qadın üçün yer tapılardı. Bu qadına qarşı hiss etdiklərini təsvir edə bilmirdi. Bu qadını sevirdisə, o zaman niyə gününü qara edirdi, yox sevmirdisə niyə onunla bərabər idi.

Acmışdı. Stola göz gəzdirdi. Bir tərəfdə bir-iki boşqab pendir, göyərti və süfrədən qayıtmış bildirçin kababı vardı. Ürəyi sancdı. Həmişə bildirçinlərə yazığı gəlmişdi. Başa düşə bilmirdi ki, dünyada yeməli bu qədər heyvan. bitki və quş olduğu halda niyə insanın gözü bu balaca, çəlimsiz, yazıq quşcuğazlara düşür. Ömründə bircə dəfə də yeməmişdi bu fağır quşun ətini. Bir də bu toy məntiqi ona çatmırdı. Əşi bir qız bir oğlanı sevirsə bu boyda həngaməyə nə lüzum var? Eləcə gedib evlənsinlər və yaşasınlar da. O yaxşı bilirdi ki, toya çağırılan üç yüz, beş yüz adamın içərisində vur-tut beş-on adam səbəbkarların xoş gününə həqiqətən sevinir. Gözləri yol çəkdi. Dəhşətli dərəcədə içmək istəyirdi. Amma özünü saxladı. Bir azdan onun növbəsi gələcəkdi.

Evlərində həmişə, demək olar ki, anadan olandan içki və içkili adam görmüşdü. Atası içən idi. Nəinki içirdi, necə deyərlər lap küpünə girirdi. Tez-tez dava-dalaş olurdu evdə. Anasını həmişə atasından çox istəmişdi. Sonra bir gün anası öldü. Qohum-əqrəba indi də atasının evlənmədiyini, həyatını ona həsr etdiyini danışırdı. Amma bircə o bilirdi ki, evdə atasının varlığıyla yoxluğu bilinmir.

Qız ondan bir kurs aşağıda oxuyurdu. Qaragöz, şən, diribaş bir qız idi. Adı da Gülşən idi. Heç özü də bilmirdi ki, Gülşənlə harda, nə zaman yaxınlaşıblar. Gülşənin bir rəfiqəsi vardı. Sonaxanım idi qızın adı. Sonaxanımı yetişmiş qovuna bənzədirdi həmişə. Qızın qabarıq sinəsi, dolu bədəni, gözəl üzü vardı. Əlbəttə ki. Gülşəndən çox fərqli və gözəl idi. Amma o Gülşəni sevirdi. Sonaxanım Bakılı idi. Gülşən isə Sabirabaddan gəlmişdi oxumağa. Rəfiqə olsalar da qızlar kəskin fərqlənirdilər. Əslində Sonaxanım Gülşənə nə qədər yaxın görünsə də, bütün hərəkətləri və davranışları ilə fərqli olduğunu göstərməyə çalışırdı. Üstünlüyünü, şəhər qızı olmasını vurğulayır və hətta Gülşəni hər mümkün fürsətdə əzirdi. O kişi intuisiyası ilə başa düşürdü ki, Sonaxanımımın ona diqqət yetirit. Bəlkə də Sonaxanım sadəcə Gülşənin acığına ona maraq göstərirdi. Bir bazar günü Sona ona zəng vurub onu atasıgilin Novxanıdakı bağ evinə dəvət etdi. Sonanın dediyinə görə uşaqlar da bağa yığışacaqdılar. Özü də bilmədi niyə ürəyinin dərinliyində Sonanın bu uşaqlar haqda dediklərinə inanmadı. Sürücülük vəsiqəsi vardı, amma maşını yox idi. Məhlə uşaqlarından birinin maşınını götürdü. Köhnə jiquli markalı avtomobil bağ massivində irəlilədikcə sanki bədənində qarışqa gəzirdi. Bu aralar Gülşəni də, keçmişdə baş verənləri də, gələcəkdə baş verəcəkləri də unutmuşdu. Eləcə uçurdu, Sonaxanıma sarı uçurdu. Gündüzdən uşaqlarla kafedə bir az içmişdi. Beynində Sonanın kaman qaşları, çoxmənalı baxışları və sinəsi dolanırdı. Gülşənin məsum üzü də bu xəyalın arxasından arabir görünüb itirdi.

Bağ evini gec tapa bildi. Gəlib çatanda saat doqquza işləyirdi. Günəş yavaş-yavaş əyilirdi. Dəniz dən əsən sərin külək adamı ətri və təravəti ilə bihuş edirdi. Biri-birinə sıxılmış bağlar, meynəliklər, sahil qumları batmaqda olan günəşin şəfəqlərində çimirdi. Bağı birtəhər tapdı. Darvazadan içəri girəndə həyətdə hökm sürən sakitlikdən zənnində yanılmadığını anladı. Sonaxanım içəridən qaça-qaça çıxıb ona yanaşdı. Əynində qarışıq rəngli, göy qurşağının xatırladan sarafan vardı. Sarafan nazik idi və qızın bütün bədəni demək olar ki, kölgə şəklində hiss olunurdu. Uzun, qıvrım saçları başının ortasında sancaqlanmışdı. Camal soruşdu:

- Uşaqlar hanı bəs?

- Uşaqlar gəlib çıxmadılar. Zəfərə demişdim, Narıngülə də. Gülşən heç. Xazyayksı onun keşiyini bərk çəkir. Bu vaxt çölə-bayıra buraxmaz. Maması bərk-bərk tapşırıb.

Yenə də Gülşəni əzmək həvəsi vardı qızın danışığında. Sonra sanki səhvini anladı. Bu anda Camalın Gülşənə olan hisslərini yada salmaq lazım deyildi. Qız süzgün gözlərini oğlanın enli sinəsinə dikib gülümsündü.

- Əşş, uşaqlar nəyinə lazımdır ey sənin. Mən varam da. Otur çörək yeyək, acından ölürəm.

Sonaxanımla yedikləri katlet, qarpız yadında idi. Bir də şərab içdilər. Qızın belə sərbəst, rahat şərab içməsi ona hətta xoş da gəldi. Beyni dumanlı idi. Bir də Sonanın dəniz qumu və fransız ətri verən saçlarını, yumşaq bədənini xatırlayırdı. Yaddaqalan bir gün keçirmişdilər...

Telefonunu açdı ki, saata baxsın. Saat dördə on beş dəqiqə işləyirdi. Axşamdan bəri səssizə qoyduğu telefona on səkkiz mesaj, otuz iki zəng gəlmişdi. Zənglər də, mesajlar da Gülşəndən idi. İçini gəmirən peşmanlıq hissi içərisində sabah sevdiyi qıza nə deyəcəyini. Bu işlərin nəylə bitəcəyini, Sonaxanımın bundan sonra onun həyatında hansı rolu oynayacağını düşünməyə başladı. Qalxıb vanna otağına keçdi. Su şırnağı başından aşağı süzüldükcə yüngülləşirdi. Gülşəndən hər şeyi gizlətməyə qərar verdi. Hamamdan çıxanda telefonu yenidən zəng çalırdı. Özünü telefona çatdırana qədər Sonaxanım artıq telefonu açmışdı. Yəqin ki, gecənin bu vaxtı sevgilisinin telefonuna nə üçün rəfiqəsinin cavab verdiyini anlamağa çalışırdı. Bir anlıq çaşqın halda otağın ortasında dayanmış Gülşəni görürmüş kimi oldu. Sonaxanımın son cümləsi ox kimi beyninə sancıldı.

- Gecənin bu vaxtı neyləyirlər, Gülşən, yatmışdıq.

Özünü otağa atdı, telefonu Sonanın əlindən qapıb qulağına apardı. Son eşitdiyi Gülşənin hıçqırıqları oldu. Tələsik geyinin bayıra qaçdı, Sona da onun ardınca yüyürüb son anda maşının arxa oturacağına otura bildi. Elə həyəcanlı idi ki, Sonanın maşında olub olmamasına da fikir vermədi. Bircə şey düşünürdü, şəhərə tez çatamaq. Ancaq indi etdiyinin necə mənasız, neçə axmaq bir şey olduğunu və bəlkə də bu gün bütün həyatını dəyişdiyini başa düşürdü. Yol bitmək bilmirdi. Yalnız döngələrdən birini dönəndə ona elə gəldi ki, yol qəfil qurtardı. Nə olduğunu anlamadan uçduğunu hiss etdi. Sonanın qışqırığı, sınan şüşələrin cingiltisi və eniş...

Xəstəxanada qəzadan bir həftə sonra özünə gəldi. Sol ayağının baldır sümüyü xıncım-xıncım olmuşdu. Boynu sınmışdı, beyni silkələnmiş, daxili orqanları zədələnmişdi. Sona qəzada ölmüşdü. Yarım ilə yaxın xəstəxanalarda qaldı, atası bir dəfə də yanına gəlmədi. Qohum əqrəbalar da eləcə. Xəstəxanadan yarımcan çıxdı. Qara ciyəri zədəli, sol ayağı qüsurlu, üzündə dərin bir yara izi vardı. Axırıncı kursda imtahanları vermədi, ümumiyyətlə universitetin həndəvərinə də hərlənmədi. Bir-iki dəfə Gülşənin nömrəsini yığdı. Amma görünür qız nömrəni dəyişmişdi. Bu vəziyyətdə yəni işsiz, evsiz, iş qabiliyyəti olmayan bir adam hansısa sevgidən necə danışa bilərdi?

Bu işi ona dostlarından biri tapmışdı. Kloun işləyirdi. Saathesabı sünnət toylarında, ad günlərində təlxəklik edirdi. Atası evi satıb pulunu tapdığı küçə qadınlarından biri ilə yemişdi. İndi onun harda olduğunu bilmirdi. Özü isə kirayə tutduğu zirzəmidə onunla yaşayırdı. Təsadüfən tanış olduğu, keçmişi ilə əlaqədar heç nə bilmədiyi o qadınla. Nərgizin keçmişindən heç zaman arxayın olmamışdı. Xüsusən başına gələnlərdən sonra bütün qadınlardan zəhləsi gedirdi. İnanmırdı, etibar etmirdi. Amma Nərgiz deyəsən, doğrudan da onu sevirdi. Demək olar ki. hər gün evə sərxoş gəlir, içəri girən kimi də ağlına gələn ilk fikir Nərgizin ona xəyanət edə biləcəyi ehtimalı olurdu. Qapıdan girən kimi günahı oldu, olmadı ona sığınmış, bəlkə də həqiqətən onu sevən bu qadını döyürdü. Üç il idi bir yerdə idilər. Nərgiz bu üç ildə bir dəfə də şikayət eləməmişdi həyatından. Acıq eləməmişdi. onu qınamamışdı. Əksinə, həmişə döyüləndən sonra ona qısılır, Camal sənin qızıl kimi ürəyin var, içmə də nolar, deyirdi. Ona elə gəlirdi ki, Gülşən onun bütün həyatını, uğurlarını və gələcəyini özü ilə aparıb. Gülşəndən başqa qadın sevə bilməz, yaşadıqları da elə belə ötəri hisslərdir. Nərgizi isə sevmək üçün yox sadəcə sahibsiz, yazıq olduğu üçün yanında saxladığını düşünürdü. Kim idi Nərgiz? Onun sevgisinin tör-töküntüsü ilə doyan, kifayətlənməyə məcbur olan biri. Ərdən boşanmış, tək yaşamış biri. Gülşənlə müqayisəyə belə gəlməyən bir qadın. Niyə sevirdi onu bu gözəl və yazıq qadın. Nəyini sevirdi? Ona həmişə elə gəlirdi ki, göstərdiyi qayğı Nərgizə çoxdur. Nərgizi tumarlamaq olmaz, onu tərifləmək olmaz ayağı yer alar.

Banket zalına girəndə həmişəki kimi səntirlədi. Adətən, təlxək gərək girəcəkdə səntirləyəydi və hətta yıxılaydı da. Qırmızı ağzı, ağappaq sifəti ilə kontrast təşkil edirdi. Uşaqlar bir anda onu dövrəyə aldılar. Əzbərlədiyi mətni mikrofonla oxumağa başladı. Toyu olan uşaq stolda oturmuşdu. Məzəli səslə uşağın valideynlərini çağırdı. Rayon adamına bənzəyən kişi və uzun, tünd mavi paltar geyinmiş qadın ona yaxınlaşdı. İkinci dəfə səntirlədi, amma bu dəfə ssenaridən kənar. Uşağın anası Gülşən idi. Gülşən dəyişilmişdi, gözləri çuxura düşmüş, üzü uzanmışdı. İllərlə xəyalında yaşatdığı məsum qız, yorğun, üzgün bir kənd qadınına çevrilmişdi. Özündə güc tapıb köhnə hisslərinin üstündəki qalın tox təbəqəsini üfürmək, hisslərini alovlandırmaq istədi. Başa düşürdü ki, bundan sonra onun hissləri heç kimə gərək deyi.l Bu qadın ölsə də yanındakı qara, bığlı kişini tərk etməz. Sadəcə sevə bilmək qabiliyyətini yoxlayırdı. Amma alınmadı. Təəccüb içində kəşf etdi ki, qadın haqqında düşünən kimi xəyalına Nərgizin fağır, cazibədar, əsmər çöhrəsi gəlir. Bu arıq, qayğılı kənd qadınını sevə bilməzdi. Doğma heç nə qalmamışdı Gülşənin simasında. İçində nəsə qırıldı. O gecə Sonaxanımla özünü bir yataqda gördüyü gecə də belə olmuşdu. Qrimlənmiş üzündəki iri gözlərindən yaş axmağa başladı. Göz yaşları yanaqları ilə üzü aşağı axdıqca balaca bəy təəccüblə ona baxırdı. Tamaşa sona çatmaq üzrə idi. Reqlamentə uyğun işini görmüşdü. Zaldan çıxdı. Ürəyi sancırdı. Fikirli addımlarla restorandan çıxdı. Yolu yarılayanda yadına düşdü ki, üzündəki qrimi yumayıb. Yanaqlarında göz yaşlarından qalan kirli izlər, dodaqlarında isə təbəssüm. Yolun ortası ilə bir kloun addımlayırdı, ovcunda bu axşam qazandığı pulu vardı. Yorğun gözlərini bir anlığa yumdu. Gülşənlə vidalaşmaq istədi. Çox illər əvvəlki simanı, hər gecə yuxusuna girən, hər səhər xatırladığı simanı onca dəqiqədə unutmuşdu. Gözlərini yuman kimi ağlına Gülşənin əvəzinə bayaqkı yad qadın gəlirdi. Birdən birə Nərgiz üçün darıxdığını hiss etdi. Üç ildə ilk dəfə Nərgizi sevdiyini dərk elədi. İçində bir ümid pöhrələnirdi. Hiss edirdi ki, hər şey yaxşı olacaq. Yalnız indi yadına düşdü ki, Nərgizlə nişan üzükləri yoxdur.

Qaranlıq döngədən keçib üzündəki qrimə, əcaib görünüşünə məhəl qoymadan sahildəki dükanlardan birinə girdi. Ovcunda tutduğu əlli manatı satıcı qıza verib gümüş üzüklərdən birini aldı.

